Xalq qəzeti 2020.- 17 dekabr.- S.5.



# Zəfər paradı qüdrətimizi bütün dünyaya göstərdi

**Dövlətimizin başçısı, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin Zəfər paradındakı çıxışı keçilmiş qısa tarixi dövrün – Vətən müharibəsi dövrünün, rəşadətli ordumuzun gücünün dərin və fərəhli təhlili kimi səciyyələnir, həm də bundan sonrakı fəaliyyətimizin Yol Xəritəsi sayılır.**



Bu fikri Milli Məclisin deputatı Emin Hacıyev bildirib. Zəfər paradı bütün dünyaya Azərbaycan–Türkiyə dostluğunun sarsılmaz və əbədi olduğunu bir daha sübut etdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər paradında iştirakı tarixi hadisədir, – deyən deputat qeyd edib ki, ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” şüarı böyük ideoloji gücə malikdir və əbədi birliyimizin ifadəsidir.

Bakının Azadlıq meydanında keçirilən Zəfər paradı həm də ordumuzun qüdrətini, Ermənistanın necə rəzil günə düşdüyünü bir daha nümayiş etdirdi. Azərbaycan Silahlı Qüvvələri quruda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malik olduğunu bir daha sübut etdi. Ordumuz Azadlıq meydanında qürurla addımladı. Azərbaycan əsgəri böyük ruh yüksəkliyi ilə bu paradda keçid etdi.

Bir məqamı da diqqətdən qaçırmayaq ki, Zəfər paradı Yerevanda 44 günlük müharibədə məhv edilmiş erməni hərbçilərinin ailələrinin etiraz aksiyaları fonunda keçirilirdi, bunun özü də müəyyən rəmzi xarakter daşıyır və Ermənistanın əbədi məğlubiyyətinə bir işarədir.

Deputat onu da bildirdi ki, Azərbaycanın müstəqil dövlətinin yaranma prosesi, məhz Azadlıq meydanından başlayıb. Biz yüzlərlə şəhidi bu meydandan əbədiyyətə yola salmışıq. Bu mənada Zəfər paradının, məhz Azadlıq meydanında baş tutması böyük rəmzi məna daşıyır. Eyni zamanda, 44 günlük müharibədə qazandığımız qələbə və möhtəşəm parad Ermənistan üçün böyük tarixi dərs oldu. Yəqin ki, onlar artıq heç bir vaxt heç bir ölkəyə qarşı torpaq iddiaları qaldırmaq, işğalçılıq siyasəti həyata keçirmək iddiasında olmazlar. Bu onlar üçün əbədi ibrətdir.

Bu gün dünya Azərbaycanın gücünü gördü. Özünə hörmət eləyən elə bir dövlət olmadı ki, haqlı mübarizəmizdə bizi dəstəkləməsin. Tarixi qələbəmizin zirvə nöqtəsini – Zəfər paradını reallaşdırmaqla biz həm də yeni tərəqqi dövrünə qədəm qoyduğumuzu bir daha sübut etdik.

Azərbaycan son dövrlərdə neçə-neçə iri regional layihənin müəllifi olub, böyük tədbirlərə uğurla ev sahibliyi edib. Artıq çoxdan sübut olunub ki, ölkəmiz Cənubi Qafqazın lider dövlətidir. Azərbaycan olmadan bu regionda heç bir inkişafdan söhbət gedə bilməz. Qələbə sevincini, bu tarixi günləri bizə yaşadan müzəffər Ali Baş Komandana böyük minnətdarlıq hissimizi çatdırır, Vətən müharibəsi şəhidlərinin ruhu qarşısında baş əyir, qazilərimizə cansağlığı arzu edirik.

Dövr bizimdir, qələbə bizimdir, gələcək bizimdir!

***Hazırladı: Əli NƏCƏFXANLI, “Xalq qəzeti”***